**UOT 94(479.24)**
**https://doi.org/10.59849/2218-4783.2026.1.67**

# ORTA TUNC DÖVRÜ BOYALI QABLAR MƏDƏNİYYƏTİNİN YAYILMA AREALI

# THE DISTRIBUTION AREA OF THE MIDDLE BRONZE AGE PAINTED POTTERY CULTURE

**Nuray MƏMMƏDLİ***

## XÜLASƏ

Arxeoloji araşdırmalar göstərir ki, Orta Tunc dövrünün Boyalı qablar mədəniyyəti Cənubi Qafqaz, Urmiya hövzəsi və Şərqi Anadolunu əhatə edən geniş bir ərazidə yayılmışdır. Bölgənin zəngin təbii sərvətləri, həmçinin ərazinin əkinçilik və köçmə maldarlıq üçün əlverişli olan təbii şəraiti Orta Tunc dövrünün oturaq və köçmə maldarlıqla məşğul olan tayfaları üçün olduqca əlverişli olmuşdur. Araşdırmalar başlıca istehsal mərkəzlərinin Urmiya hövzəsi və Naxçıvanda olduğunu göstərir. Urmiya hövzəsi və Naxçıvanın yaşayış yerləri, həmçinin, çoxtəbəqəli olması ilə fərqlənirlər. Araşdırmalara əsaslanaraq demək olar ki, Urmiya hövzəsi və Naxçıvanda formalaşan bu mədəniyyət e. ə. III minilliyin sonlarından başlayaraq Yaxın Şərq və Cənubi Qafqazda böyük əraziyə, o cümlədən Van, Göyçə gölləri arasındakı geniş əraziyə və Mil-Qarabağ düzənliyinə yayılmışdır. E. ə. II minillikdə Boyalı qablar mədəniyyətini daşıyan tayfalar Naxçıvan, Urmiya hövzəsi və Şərqi Anadoluda möhkəmlənmişdir.

**Açar sözlər:** *Cənubi Qafqaz, Urmiya hövzəsi, Naxçıvan, boyalı qablar, Orta Tunc.*

## ABSTRACT

Archaeological research shows that the Painted Pottery culture of the Middle Bronze Age was widespread across a vast area encompassing the South Caucasus, the Urmia basin and Eastern Anatolia. The region's abundant natural resources, as well as its natural conditions favorable for agriculture and transhumant pastoralism, proved highly suitable for both sedentary and nomadic pastoral tribes of the Middle Bronze Age. Research indicates that the main production centers were located in the Urmia basin and Nakhchivan. Settlements in the Urmia basin and Nakhchivan are also distinguished by their multi-layer stratigraphy. Based on the findings, it can be argued that this culture, which took shape in the Urmia basin and Nakhchivan, spread from the late 3rd millennium BCE across a large territory in the Near East and South Caucasus, including the extensive area between Lake Van and Lake Sevan, as well as the Mil-Karabakh plain. In the 2nd millennium BCE, tribes associated with the Painted Pottery culture became established in Nakhchivan, the Urmia basin and Eastern Anatolia.

**Keywords:** *South Caucasus, Urmia basin, Nakhchivan, painted pottery, Middle Bronze Age.*

## GİRİŞ

Araşdırmalar göstərir ki, Orta Tunc dövrü boyalı qablar mədəniyyəti Yaxın Şərq və Cənubi Qafqazda geniş bir coğrafiyada yayılmışdır [Алиев, 1991, s. 3-124; Baxşəliyev, 2003, s. 191]. Bu mədəniyyətin sərhədləri şimalda Qafqaz dağlarının ətəkləri, şərqdə Mil-Qarabağ düzənliyi, cənubda Urmiya hövzəsi, qərbdə Şərqi Anadolu ilə hüdudlanır. Şərqi Anadoluda bu mədəniyyət cənubda Hakkari, Van gölü hövzəsi, qərb və şimal-qərbdə Muş, Erzurum ve Artvin bölgələrinin sərhədləri ilə məhdudlaşır [Özfırat, 2001, s. 104]. Lakin qeyd etmək lazımdır ki, Şərqi Anadolunun qərb bölgələri yalnız yerüstü araşdırmalarla öyrənilmiş, bu bölgədə geniş arxeoloji araşdırmalar aparıl-

* Naxçıvan Dövlət Universiteti, e-mail: nuray.memmedli31@gmail.com
ORCİD: 0009-0008-0850-5413

mamışdır. Digər tərəfdən bəzi sovet tarixçiləri bu mədəniyyətin formalaşması və yayılması ilə bağlı olduqca yanlış fikirlər söyləmişlər. Bəzi tədqiqatçılar bu mədəniyyətin Gürcüstan ərazisindəki Trialetidən, bəziləri isə Sevan hövzəsindən yayıldığını irəli sürmüşlər. Lakin Naxçıvanda son illər əldə edilən maddi mədəniyyət nümunələri bu fikirlərin tamamilə yanlış olduğunu göstərir.

## ŞƏRQİ ANADOLU VƏ URMİYA HÖVZƏSİ

Muş ovalığında Kökten [Kökten, 1947, s. 463], Barney [Burney, 1958, s. 164] və Rotmanın [Rotman, 1993, s. 283] apardığı yerüstü araşdırmalar zamanı bu mədəniyyətə aid boyalı keramika aşkar olunmamışdır. Muş ovalığının şimalında sübhan dağlarının ətəklərində Orta Tunc dövrünə aid nekropollar olduğu müəyyən edilmişdir. Bingöl dağları, Keba-Qaraqaya bölgələrində görülən boyalılar isə Şərqi Anadolu boyalılarından tamamilə fərqli olub Elazıq-Malatya boyalıları adlandırılmışdır [Özfırat, 2001, s. 104]. İmikuşağı və Arslantəpə yaşayış yerlərində tək-tək nümunələrlə təmsil edilən boyalıların isə buraya idxal malı kimi gətirildiyi söylənmişdir [Sevin & Derin, 1987, s. 183]. Erzurum ovalığında aparılan araşdırmalar zamanı bu mədəniyyət üçün xarakterik olan boyalı keramika əldə edilməmişdir. Lakin Kiçik Çatma və Ani nekropollarından və Sos Höyük yaşayış yerinin keramika məmulatının bəzi nümunələri, Erzurum və Kars muzeylərindəki boyalı qablar bu mədəniyyətinin qərb sərhədlərini müəyyən etmək üçün əhəmiyyətlidir [Özfırat, 2001, s. 104]. Şərqi Anadolunun qara cilalı və boyalı qablarının Trialeti kurqanlarının, Haftavantəpənin Erkın VIB təbəqəsinin və Naxçıvan boyalıları ilə eyni naxış motivlərinə malik olması lokal fərqlərin olmasına baxmayaraq bu bölgələr arasında mədəni əlaqələrin olduğunu təsdiqləyir. Erzurum, Kars, Qaziantep muzeylərindəki boyalı keramika məmulatının bu mədəniyyətə aid olduğu heç bir şübhə doğurmur [Özfırat, 2001, s. 104]. Həndəsi motivdə ştrixlənmiş üçbucaqlarla naxışlanmış bu tip qablar Şərqi Anadoludan Urmiya hövzəsi, Naxçıvan, Mil Qarabağ düzənliyi, Ermənistan və Gürcüstan da daxil olmaqla olduqca geniş bir əraziyə yayılmışdır.

Tədqiqatçı A.Özfırat Doğubəyazitin Təzəkənd mədəniyyətinin sərhədləri içərisində olduğunu yazmışdır [Özfırat, 2001, s. 105]. Onun fikrinə görə Gürcüstanda Məhsəti kurqanları, Ermənistanda Verin Naver, Keti, Ariç və Metsamor nekropollarından əldə edilən boyalı qablar Təzəkənd, Göyçə və Üzərliktəpə üçün xarakterik özəllikləri əks etdirir. O, Kars muzeyindəki bir qrup boyalı qabın Trialeti motivində, qabların 4%-nin isə Təzəkənd motivində naxışlandığını qeyd etmişdir [Özfırat, 2001, s. 105]. Təzəkənd motivində naxışlanan Həsənsu kurqanından aşkar olunması [Müseyibli & Ağalarzadə, 2013, s. 21-23] bu mədəniyyətin Qafqaz dağlarının ətəklərinə qədər yayıldığını göstərir. Digər tərəfdən Həsənsu kurqanının kompleksində olan digər boyalı keramika nümunələri həm forma, həm də naxış motivi baxımından Naxçıvan boyalıları, xüsusilə II Kültəpədən əldə edilən boyalı qablarla eyniyyət təşkil edir.

Şərqi Anadoluda Suluçem kurqanlarından aşkar olunan boyalı qabları Göyçə-Üzərlik qrupunun keramikası, həmçinin Təzəkənd, Verin Naver, Nor Bəyazit, Metsamorla müqayisə edən A.Özfırat bu tip keramika məmulatının Naxçıvan və Urmiya hövzəsinin materialları ilə tam paralellik göstərdiyini yazmışdır [Özfırat, 2001, s. 106]. O, həmçinin Şərqi Anadolu muzeylərində toplanan boyalı qabların əksəriyyətinin Van-Urmiya mədəniyyətinə aid olduğunu yazmış bu mədəniyyətin sərhədlərinin Naxçıvanı da əhatə etdiyini qeyd etmişdir. Van-Erzurum bölgəsində əldə edilən boyalı qabların bir qrupu Naxçıvan abidələrindən aşkar olunan qablarla bənzər olsa da bu bölgənin özünəməxsus xüsusiyyətləri də olmuşdur. Boyalı qabların bəzi tipləri, xüsusilə silindrik gövdəli, halqadabanlı çölməklər, vaza tipli, lüləkli qablara və digərləri yalnız bu bölgənin abidələrində rast gəlinir [Özfırat, 2001, s. 106]. Tədqiqatçı bölgələrdə ortaya çıxan bu fərqlərin həm də abidələrin kifayət qədər öyrənilməməsi ilə əlaqələndirir. Belə ki, Naxçıvan və Urmiya hövzəsində boyalı keramika başlıca olaraq yaşayış yerlərindən aşkar olunduğu halda [Əliyev, 1977, s. 4-124], Şərqi Anadoluda yalnızca nekropollardan aşkar olunmuşdur. Araşdırmalar Van-Erzurum bölgəsindəki kurqanların araşdırılması bu kurqanların quruluş baxımında Naxçıvan bölgəsində yayılan kurqanlarla eyni xüsu-

siyyətlərə malik olduğunu göstərir [Özfırat, 2001, s. 107]. Qeyd etmək lazımdır ki, Şərqi Anadoluda Boyalı qablar mədəniyyətinin müxtəlif mərhələlərinin, həmçinin polixrom boyalı keramikanın müxtəlif tiplərinin aşkar olunması Orta Tunc dövrü tayfalarının bu bölgədə uzun müddət məskən saldığını göstərir. Şərqi Anadoluda xeyli qala tipli yaşayış yerləri də mövcud olmuşdur. Lakin bu qalalarda Orta Tunc dövründə yaşayışın olması öyrənilməmişdir. Buna görə də Orta Tunc dövrü qalalarının mövcud olması qeyri-müəyyən olaraq qalır.

Urmiya hövzəsində də Orta Tunc dövrü Boyalı qablar mədəniyyətinin yayılma arealı tam şəkildə dəqiqləşdirilməmişdir. Urmiya hövzəsinin tədqiqatlarla daha yaxşı öyrənilən abidələri başlıca olaraq Urmiya gölünün şimalında və qərbində yerləşir. Bu bölgədə Orta Tunc dövrü Boyalı qablar mədəniyyəti üçün xarakterik boyalı keramikanın yayıldığı ən cənub yaşayış yeri Dinkatəpədir. Qeyd edildiyi kimi, Urmiya hövzəsinin yaşayış yerləri ardıcıl stratiqrafiyası və aydın təbəqələnməsi ilə seçilir. Bu hövzənin ən mühüm yaşayış yerlərindən biri olan Göytəpənin Orta Tunc dövrü təbəqəsində müdafiə divarlarının qalıqlarının aşkar olunması bu dövrdə bölgədə yaşayan insanların müdafiəyə ehtiyacı olduğunu göstərir. Bu isə Boyalı qablar mədəniyyətin yayıldığı əsas bölgələrdə insanların müdafiə məqsədli istehkamlar inşa etməyə məcbur olduğu təsdiq edir.

## CƏNUBİ QAFQAZ

Cənubi Qafqazda bu mədəniyyətin şimal və şərq sərhədləri Trialeti, Zurnabad, Həsənsu kurqanları və Üzərliktəpə yaşayış yerinin yerləşdiyi xətt boyunca məhdudlaşır. Mil-Qarabağ düzənliyin digər sahələrində hələlik Orta Tunc dövrü üçün xarakterik olan boyalı keramika ilə rastlaşmırıq. Mil-Qarabağ bölgəsində boyalı keramikanın azlığı bu tip keramikanın Naxçıvanla əlaqələr nəticəsində, yaxud Naxçıvanda yaşayan tayfaların Qarabağ bölgəsinə miqrasiyası ilə bağlı ola bilərdi. Arxeoloji abidələrin tədqiqi Orta Tunc dövründə Azərbaycanda müxtəlif mədəniyyətlərin formalaşdığını göstərir. Naxçıvan və Urmiya hövzəsi üçün boyalı qablarla xarakterizə edilən bir mədəniyyətin formalaşdığı dövrdə Mil-Qarabağ bölgəsində qara cilalı, basma və cızma naxışlı keramika ilə seçilən bir mədəniyyət formalaşmışdır. Tədqiqatçı Vəli Baxşəliyev Mil-Qarabağ bölgəsində yayılan Orta Tunc dövrü mədəniyyətini "Qarabağ mədəniyyəti" adlandırmış və bu mədəniyyətin Kür-Araz mədəniyyətindən qaynaqlandığını yazmışdır [Bahşaliyev, 1997, s. 34]. Onun fikrinə görə, Orta Tunc dövrü Boyalı qablar mədəniyyəti bu bölgədə ortaya çıxan yeni etnik qruplarla bağlı olmuşdur.

Cənubi Qafqazın digər bölgələrindən fərqli olaraq Naxçıvan Orta Tunc dövrü Boyalı qablar mədəniyyətinin yayıldığı arealın mərkəzində yerləşir. Yuxarıda da qeyd etdiyimiz kimi, Naxçıvanda istər yaşayış yerlərinin istərsə də qəbir abidələrinin olduqca müxtəlif tipləri aşkar olunmuşdur. Naxçıvanın tədqiqatlarla geniş öyrənilmiş I Kültəpə [Абибуллаев, 1982], II Kültəpə [Алиев, 1991] və Qızqala yaşayış yerləri boyalı qablar mədəniyyətinin yayılma arealı, xronologiyası və mənşəyinin müəyyən edilməsi üçün olduqca əhəmiyyətlidir. Bu baxımdan 2015-2019-cu illərdə tədqiq edilən Qızqala yaşayış yeri və nekropolunun xüsusi yer tutur [Бахшалиев və d., 2022, s. 185-198]. V.B.Baxşəliyev, A.Q.Seyidov və digər tədqiqatçıların əsərlərində Naxçıvanın Orta Tunc dövrü mədəniyyətinin Urmiya hövzəsinin abidələri ilə həmdövr olduğu söylənsə də bu tədqiqatçılar tərəfindən birmənalı qarşılanmamışdır. Lakin Qızqala yaşayış yeri və kurqanlarından götürülən karbon nümunələrin analizinin nəticələri Boyalı qablar mədəniyyətinin Urmiya hövzəsi və Naxçıvanda eyni dövrdə formalaşdığını göstərmişdir [Бахшалиев, 1992, s. 15]. Tədqiqatçı V.B.Baxşəliyev vaxtilə Orta Tunc dövrü boyalı qablar mədəniyyətinin Eneolit dövründən burda məskən salan tayfaların Erkən Tunc dövründə öz mədəniyyətlərini davam etdirdiyini qeyd etsə də, Eneolit və Orta Tunc dövrü arasındakı böyük xronoloji fərqin olması bu fikirlərin inandırıcı olmasına şübhə yaradırdı [Бахшалиев, 1992, s. 15]. Ancaq Urmiya hövzəsində Erkən Tunc dövrünə aid Həsənli VII tipli boyalı keramikanın aşkar olunması bu fikrin doğru olduğunu göstərirdi. Bu baxımdan tədqiqatçıların Orta Tuncdövrü boyalı qablarının Həsənli VII tipli boyalı keramikası ilə bağlı olması və Urmiya hövzəsindən yayılması fikri [Edwards, 1986, s. 73; Barney & Lang, 1971, s. 101], fikrimizə görə həqiqətə uyğundur. Ancaq

belə hesab edirik ki, Orta Tunc dövrü abidələrinin öyrənilməsində hələ də müəyyən boşluqlar var. Gələcək tədqiqatlar, yəqin ki, bu boşluqları doldurmağa imkan verəcəkdir. Tədqiqatların indiki səviyyəsində deyə bilərik ki, Orta Tunc dövrü boyalıları başlanğıcda Urmiya hövzəsindən qaynaqlana bilərdi. Ancaq Orta Tunc dövrü Boyalı qablar mədəniyyətinin formalaşması yalnız Urmiya hövzəsi ilə bağlı olmamışdır. Haftavantəpə və Göytəpə yaşayış yerlərindən aşkar olunan boyalı keramikanın demək olar ki, bütün tipləri Naxçıvan və Şərqi Anadolu abidələrindən aşkar olunmuşdur. Havtavantəpə yaşayış yerindən aşkar olunan heyvan motivli boyalı keramikanın da bənzərləri hələlik Qızqala yaşayış yerindən məlumdur. Boyalı keramikanın yayıldığı bu regionların özünəməxsus xüsusiyyətlərinin olduğunu yuxarıda qeyd etmişdik. Fikrimizə görə boyalı keramikanın yayıldığı arealda lokal fərqlər müxtəlif istehsal və sənətkarlıq mərkəzlərinin olması ilə bağlı olmuşdur. Ermənistan və Gürcüstanda Təzəkənd mədəniyyəti istisna olmaqla, yaşayış yerləri və qəbir abidələrinin heç birinin keramikasında özünəməxsusluq yoxdur. Bu regionların boyalı keramikası Urmiya hövzəsi, Naxçıvan və Şərqi Anadolu keramikasını təkrar edir. Ermənistan abidələrindən aşkar olunan keramika nümunələrinin tam bənzərləri məhz Naxçıvan abidələrindən, xüsusilə II Kültəpədən məlumdur. Belə hesab edirik ki, tədqiqatçıların Orta Tunc dövrü boyalı keramikasının Urmiya hövzəsindən Ermənistana və Gürcüstana yayılması ilə bağlı fikirlər həqiqətə uyğundur [Barney & Lang 1971, s. 101]. Belə hesab edirik ki, Urmiya hövzəsi və Naxçıvanda məskən salan tayfaların əsas yaylaqları Şərqi Anadoluda olmuş və burada mədəniyyət uzun müddət davam etmişdir. İlk mərhələdə Ermənistan, Gürcüstan və Mil-Qarabağ bölgəsinə yayılan bu mədəniyyət Orta Tunc dövrünün sonrakı mərhələlərində burada qeydə alınmamışdır. Ehtimal ki, tayfalararası ziddiyyətlər Orta Tunc dövrü tayfalarının müəyyən bölgələrlə əlaqələrinin kəsilməsi ilə nəticələnmişdir.

Buna görə də K.X.Kuşnaryevanın Göyçə hövzəsi, Mil düzü və Naxçıvanda yayılan boyalı keramika məmulatını "Sevan-Üzərlik mədəniyyəti" adlandırması və bu mədəniyyətin Ararat vadisində ortaya çıxması haqqında yürütdüyü fikirlər [Кушнарева, 1993, s. 162] tamamilə yanlış və həqiqətdən uzaqdır [Belli & Bahşşaliyev, 2001, s. 51-52]. K.X.Kuşnarevanın Çöyçə hövzəsində tədqiq etdiyi abidələr əsasən qəbiristanlıqlar və yüksək dağlıq ərazilərdə yer alan mövsümi yaşayış yerləri ilə xarakterizə edilir. Bu yaşayış yerlərində mədəni təbəqə olduqca az yığılması bu abidələrin köçmə maldarlıqla məşğul olan tayfalara aid olduğunu göstərir. Qeyd etmək lazımdır ki, Göyçə hövzəsinin boyalı keramika məmulatı yalnız monoxrom boyalı qablarla xarakterizə edilir və bu qrupun əsas abidələrindən biri olan Üzərliktəpə yaşayış yerində qeydə alınan boyalı keramika Naxçıvan və Urmiya hövzəsinin abidələri üçün xarakterikdir. Üzərliktəpə, həmçinin Mil-Qarabağ abidələrinə boyalı keramikanın Naxçıvandan yayılmışdır.

Apardığımız araşdırmalar göstərir ki, Naxçıvanda Orta Tunc dövrünün Boyalı qablar mədəniyyəti e. ə. III minilliyin əvvəllərindən başlayaraq e. ə. I minilliyin əvvəllərinədək, Erkən Dəmir dövrünədək inkişaf etmiş və müxtəlif inkişaf mərhələsindən keçmişdir. O. Belli və V. Baxşəliyev boyalı qabların inkişafında bir neçə aralıq mərhələnin mövcudluğunu qeyd etmişdir [Belli & Bahşaliyev 2001, s. 32-49]. Orta Tunc dövrü boyalı qablarının çoxmərhələli inkişafı indiki Ermənistan və Gürcüstan ərazisində müşahidə edilməmişdir. Son illər Şərqi Anadolu boyalı qablarının araşdıran tədqiqatçılar Naxçıvanın bu mədəniyyətin əsas mərkəzlərindən biri olduğunu göstərmişlər [Özfirat, 2001, s. 116].

## NƏTİCƏ

Arxeoloji araşdırmalar göstərir ki, Orta Tunc dövrünün Boyalı qablar mədəniyyəti Cənubi Qafqaz, Urmiya hövzəsi və Şərqi Anadolunu əhatə etmişdir. Bu regionun bol otlaqları, sərin bulaqları, gursulu çayları, zəngin təbii ehtiyatları Orta Tunc dövrünün əkinçi-maldar tayfaların burada məskən salması üçün şərait yaratmışdır. Bölgənin zəngin təbii sərvətləri, həmçinin ərazinin əkinçilik və köçmə maldarlıq üçün əlverişli olan təbii şəraiti Orta Tunc dövrünün oturaq və köçmə maldarlıqla məşğul olan tayfaları üçün olduqca əlverişli olmuşdur. Araşdırmalar başlıca istehsal mərkəzlərinin Urmiya hövzəsi və Naxçıvanda olduğunu göstərir. Bu baxımdan Naxçıvanda Orta Tunc

dövrü yaşayış yerlərinin şəhər tipli, kənd tipli, qala tipli və mövsümi olmaqla müxtəlif tiplərinin olması diqqətçəkicidir. Urmiya hövzəsi və Naxçıvanın yaşayış yerləri, həmçinin, çoxtəbəqəli olması ilə fərqlənirlər. Araşdırmalara əsaslanaraq demək olar ki, Urmiya hövzəsi və Naxçıvanda formalaşan bu mədəniyyət e. ə. III minilliyin sonlarından başlayaraq Yaxın Şərq və Cənubi Qafqazda böyük əraziyə, o cümlədən Van, Göyçə gölləri arasındakı geniş əraziyə və Mil-Qarabağ düzənliyinə yayılmışdır. E. ə. II minillikdə Boyalı qablar mədəniyyətini daşıyan tayfalar Naxçıvan, Urmiya hövzəsi və Şərqi Anadoluda möhkəmlənmişdir.

## ƏDƏBİYYAT

Абибуллаев, О.А. (1982). *Энеолит и бронза на территории Нахичеванской АССР*. Элм.

Алиев, В.Г. (1991). *Культура эпохи средней бронзы Азербайджана*. Элм.

Baxşəliyev, V.B. (2023). *Naxçıvan arxeologiyası yeni tapıntılar işığında*. Əcəmi.

Əliyev, V.H. (1977). *Azərbaycanda Tunc dövrünün boyalı qablar mədəniyyəti*. Elm.

Müseyibli N., & Ağalarzadə A. (2013). *Həsənsu kurqanı*. Nafta-Press.

Bahşaliyev, V. (1997). *Archaeology of Nakhchivan*. Arkeoloji ve Sanat.

Бахшалиев В., Риствет Л., Гопник Х., Сверида Дж., Нугент С., & Лау Х. (2022). Археологические раскопки на поселении Кызкале и его некрополе. *Российская археология*, 2, 185-198.

Бахшалиев, В.Б. (1992). К вопросу хронологии расписной керамики из Нахичевани. *Результаты I симпозиума археологов и этнографов Азербайджана,* 10-24. Элм.

Belli, O. & Bahşaliyev, V. (2001). *Nahçıvan bölgesinde Orta ve Son Tunc Çağı boya bezemeli çanak çömlek kültürü*. Arkeoloji ve Sanat.

Barney, C.A. (1958). Eastern Anatolia in the Chalcolithic and Early Bronze Age. *Anatolian Studies*, VIII, 157-199.

Burney, C.A., & Lang, D.M. (1971). *People of the Hills Ancien Ararat and the Caucasus*. London.

Edwards, M.R. (1986). Urmia Ware and in its distrubition in North Western Iran. Iran and its distribution in North Western İran in the Second Millenium BC. *Iran,* 24, 57-77.

Kökten, İ.K. (1947). 1945 yılında Türk Tarih Kurumu adına Yapılan Tarihöncesi araştırmaları. *Belleten*, XI, 43, 431-472.

Кушнарева, К.Х. (1993). *Южный Кавказ в IX-II тысячелетиях до н.э*. Петербургское Востоковедение.

Özfirat, A. (2001). *Doğu Anadolu Yayla Kültürleri (m.ö. II binyıl)*. Arkeoloji ve Sanat.

Rotman, M.S. (1993). Alpaslan Baraj Gölü Alanında Muş Ovasında Yuzey Araştırmaları, Ön Rapor, 1991. *Araştırma Sonuçları Toplantısı*, X, 279-295.

Sevin, V. & Derin, Z. (1987). İmikuşağı kazıları, 1985. *Kazı sonuçları Toplantısı*, VIII, 181-204.

*(AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 22.01.2026**
**Son variant 02.03.2026**